**AZƏRBAYCAN RESPUBLİKASI**

---

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN EPİK FOLKLORUNDA QARI OBRAZI

İxtisas: 5719.01- Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Şəbnəm Vaqif qızı ƏSƏDOVA**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilən dissertasiyanın

**AVTOREFERATI**

**BAKI - 2024**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Klassik folklor şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, professor
**Ramazan Oruc oğlu Qafarov**

Filologiya elmləri doktoru, dosent
**İslam Hüseyn oğlu Sadıqov**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Etibar Əjdər oğluTalıblı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, professor
______________________ **Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
______________________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, professor
______________________ **Əfzələddin Dağbəyi oğlu Əsgərov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Epik folklor mifoloji zəmində təşəkkül tapmış obrazlarla zəngindir. Belə obrazlar ayrı-ayrı janrlarda bənzər funksiya və atributlara malikdirlər. Bəzən də elə olur ki, bu obrazlar içərisində xarakterik xüsusiyyətləri ilə fərqlənərək, tədqiqatçıların nəzər-diqqətini cəlb edən personajlara rast gəlinir. Belə obrazlardan biri qarıdır. Bu obraz folklor mətnlərində müxtəlif funksiyalar daşıyır və fərqli-fərqli tiplərdə qarşımıza çıxır.

Ümumiyyətlə, Azərbaycan folklorşünaslığında olduqca mürəkkəb və ziddiyyətli obrazlar sırasında duran qarı, müxtəlif folklor mətnlərinin əsas personajlarındandır. Bu ziddiyyət və mürəkkəblik onunla izah olunur ki, obraz, uzun müddət ərzində formalaşma prosesi keçirmişdir. O, qədim miflərdən başlayaraq nağıllara, dastanlara və eləcə də inanclara qədər müxtəlif mənbələrdən ayrı-ayrı elementləri özündə cəmləmişdir. Bu obraz, həm qəhrəmanın sınaq və mübarizələrində mühüm rol oynayan, həm də sosial və mədəni kontekstlərdə müəyyən statusları təcəssüm etdirən bir fiqur kimi şifahi xalq ədəbiyyatında özünəməxsus yer tutur.

Qarı obrazı çoxyönlülük və simvolizm baxımından olduqca zəngindir. Onun həm müdrik, həm də hiyləgər tərəfləri, xalqın dünyagörüşünün müxtəlif səviyyələrini əks etdirir. Bu tədqiqat vasitəsilə qarı obrazının epik folklordakı yeri və funksiyaları dərin təhlil edilərək, onun sosial, mədəni və mifoloji kontekstlərdə oynadığı rol izah olunur. Qarının folklor qəhrəmanı kimi tədqiqi obrazların xalq yaradıcılığında transformasiya prosesini göstərmək üçün də mühüm əhəmiyyət daşıyır. Qarı obrazı nağıllarda, dastanlarda və digər folklor janrlarında müxtəlif formalarda, bəzən müdrik məsləhətçi, bəzən qoruyucu, bəzən isə hiyləgər və ya cadugər kimi təqdim olunur. Bu çoxyönlülük və simvolik məna yükü, xalqın tarix boyunca yaşadığı sosial dəyişiklikləri, qadınların cəmiyyətdəki rolunu və fərqli mərhələlərdə bu rolun necə dəyişdiyini izah etməyə kömək edir. Bu tədqiqat, qarı obrazının yalnız cadugər və ya qorxunc bir varlıq deyil, həm də müdriklik və bilicilik daşıyıcısı olmasını üzə çıxarır. Bu, Azərbaycan epik folklorunun zənginliyini və onun sosial-mədəni məzmununu anlamağa imkan verir. Qarı obrazı köməkçi personaj kimi

çıxış etdiyi üçün əsas qəhrəmanlar qədər diqqət çəkməyə bilər. Lakin onun araşdırılmasının folklorşünaslıq üçün əhəmiyyəti böyükdür.

Azərbaycan epik folklorunda qarı obrazının lazımınca tədqiq edilməməsi mövzunun aktuallığını şərtləndirən əsas amildir. Tədqiqatın aktuallığı həmçinin onunla izah olunur ki, burada geniş epik folklor materialları əsasında ilk dəfə qarı obrazı sistemli şəkildə öyrənilmişdir. Bunun əsasında da obrazın əski türk xalqları folklorundakı funksiyaları və Azərbaycan folklorunda milli özünəməxsusluğu aşkar edilmiş, epik folklor nümunələrində qarı obrazının spesifik xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə deyə bilərik ki, Azərbaycan epik folklorunda qarı obrazı xüsusi bir tədqiqat mövzusu kimi sistemli olaraq araşdırılmamışdır. Belə ki, sadəcə Ulu Ana obrazı və ondan qopan digər obrazlar Azərbaycan folklorşünaslığında tədqiqata cəlb edilmişdir. Ulu Ana ilə bağlı əsas araşdırmalar Cəlal Bəydili və Füzuli Bayatın adı ilə bağlıdır[1]. Bu araşdırmalar özündə lazımlı faktları ehtiva edir. Ulu Anadan ayrılan obrazları Mirəli Seyidov, Arif Acalov, Asif Hacılı, Əfzələddin Əsgər, Afaq Xürrəmqızı, Şakir Albalıyev monoqrafiya və məqalələrində tədqiq etmişlər[2]. Türkiyəli tədqiqatçılardan Abdülkadir İnan, Mehmet Alparslan Küçük, Esma Şimşek, Orhan Acıpayamlı, xarici tədqiqatçılardan Mircea Eliade, Uno Harva Holmberq, Erix Noyman, Elizar Moiseyeviç Meletinski, Viktor

---

[1] Bəydili (Məmmədov), C. Türk mifoloji sözlüyü / C.Bəydili. – Bakı: Elm, – 2003. – 418 s.; Bəydili (Məmmədov), C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya / C.Bəydili. – Bakı: Mütərcim, – 2007. – 272 s.; Bayat, F. Türk Mitolojik Sistemi. Ontolojik ve Epistemolojik Bağlamda Türk Mitolojisi / F.Bayat. – İstanbul: Ötüken, – c. 1, – 2007.– 380 s.; Bayat, F. Türk Mitolojik Sistemi. Kutsal Dişi – Mitolojik Ana, Umay Paradigmasında İlkel Mitolojik Kategoriler – İyeler ve Demonoloji / F.Bayat.– İstanbul: Ötüken, – c. 2, – 2007.– 368 s.

[2] Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.Seyidov. Bakı: Yazıçı, – 1989. – 496 s.; Seyidov, M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış / M.Seyidov. Bakı: Gənclik, – 1994. – 232 s.; Acalov, A. (M. Novruzov). "Al" tapınışı və onun izləri" // A.Acalov, M.Novruzov. Azərbaycan filologiyası məsələləri jurnalı, – Bakı: – 1983. – 247-258.; Hacılı, A. Ahıska türkləri: inanc dünyası /A.Hacılı. – Bakı: Mütərcim, – 2014. – 108 s.; Xürrəmqızı, A. Azərbaycan mərasim folkloru /A.Xürrəmqızı. – Bakı: Səda, – 2002. – 270s.; Albalıyev, Ş. Hal obrazı: mifdə və mərasimdə // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXV kitab, – Bakı: Nurlan, – 2007, – s.50-72.

Yakovleviç Butanayev əsərlərində Ulu Anadan çevrilən obrazlardan bəhs etmiş, bəzi problemli məsələlərə toxunmuşlar[3]. Qarı obrazına gəlincə, Oruc Əliyev "Azərbaycan nağıllarının poetikası" və "Azərbaycan nağılları: janr, süjet və obraz problemləri" adlı iki monoqrafiyasında qarı haqqında bəzi nüanslara toxunmuşdur[4]. Folklorşünas alim həmin əsərlərdə nağıl nümunələrindən çıxış edərək sehrkar, küpəgirən və xeyirxah qarılar haqqında məlumat vermişdir. Tədqiqatçı qarı obrazının Azərbaycan sehrli nağıllarında şər qüvvələrin təmsilçiləri sırasında mühüm yer tutduğunu vurğulamışdır[5]. Rus folklorşünaslarından N.V.Novikov "Şərqi slavyan sehirli nağıllarının obrazları", V.Propp "Sehirli nağılların tarixi kökləri", E.Meletinski

---

[3] İnan, A. Al Ruhu Hakkında: Turk Mitolojisinde Kotu Bir Ruh //, Türk Tarih Ve Etnografya Dergisi, S. I. Temmuz 1933, – s. 160-167.; İnan A. Tarihte ve Bugün Şamanizm / A.İnan. – Ankara, Türk Tarih Kurumu Basımevi, –1986. – 229 s.; Küçük, M. A. Geleneksel Türk Dini'ndeki 'Ana Dişil Ruhlar'a Mitolojik Açıdan Bakış // Iğdır Üniversitesi İlahiyat Fakültesi Dergisi Sayı: 1, Nisan: 2013, – 105-134.; Şimşek, E. Çukurova'da Anlatılan Alkarısı Efsanelerinin Türk Efsaneleri İçerisindeki Yeri //, I. Uluslararası Karacaoğlan ve Çukurova Kültürü Sempozyumu, 21-23 Kasım 1990, Bildiriler, – Adana, – 1990, s.536-545.; Acıpayamlı, O. Türkiye'de Doğumla İlgili Adet ve İnanmaların Etnolojik Etüdü /O.ACıpayamlı. (Yayın No. 68, Araştırmalar Serisi No: 57). – Erzurum: Atatürk Üniversitesi Yayınları, – 1974. – 118 s.; Eliade, M. Şamanizm /M.Eliade. (Çev: İsmet Birkan), – Ankara: İmge Kitabevi, – 1999. – 560 s.; Eliade, M. Kutsal ve Dindışı /M.Eliade. (Çev: Mehmet Ali Kılıçbay), – Ankara, Gece Yayınları, – 1991. – 191 s.; The Mythology of All Races, IN THIRTEEN VOLUMES//Finno-Ugric, Siberian by U. Harva.Holmberg, 4.volume, New York: Cooper Square Publishers INC, – 1964, – 713 p.; Нойман, Э. Великая Мать /Глубинная психология и психоанализ / Э. Нойман (Перевод И. Ерзина)- М.: «Добросвет», «Издательство"КДУ"», – 2014. – 410 с.; Мелетинский, Е.М. О литературных архетипах / Е.М. Мелетинский. – Москва:Российских государственный гуманитарный университет, – 1994. – 136 с.; Мелетинский Е . М. Герой волшебной сказки / Е.М. Мелетинский. — М.-СПб.: Академия Исследований Культуры, Традиция, 205. — 240 с.; Бутанаев В. Я. Культ богини умай у хакасов // Этнография народов Сибири. – Новосибирск: Наука Сиб. отд-ние, – 1984, – с. 93-105.

[4] Əliyev, O. Azərbaycan nağıllarının poetikası / O.Əliyev. – Bakı: Səda, – 2001. – 192 s. Əliyev, O. Azərbaycan nağılları: janr, süjet və obraz problemləri / O.Əliyev. – Bakı: Elm və təhsil, – 2019. – 304 s.;

[5] Əliyev, O. Azərbaycan nağılları: janr, süjet və obraz problemləri / O.Əliyev. – Bakı: Elm və təhsil, – 2019. – s.59

“Sehirli nağılların qəhrəmanı”[6] adlı fundamental əsərlərində qarının rus və Avropa folklorundakı ekvivalenti olan “Baba Yaqa”, “staruxa” obrazları ilə bağlı motivlər, obrazların funksiya və atributları haqqında bəhs etmişlər. Lakin bu obraz mifologiyaya xidmət edən kontekstdə tədqiq olunmadığı üçün mövzu orijinallığı ilə seçilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan epik folklorudur. Tədqiqatın predmetini isə bu epik folklor mətnlərindəki qarı obrazı və onun təkamül mərhələlərinin tədqiqi təşkil edir. Bu obraz mifoloji mənşəyi ilə diqqəti cəlb etdiyi üçün qədim türklərdəki mifoloji mətnlərin də sistemli şəkildə nəzərdən keçirilməsi əsas istiqamət kimi götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın qarşısında duran əsas məqsəd Azərbaycan epik folklorunda qarı obrazının tədqiq edilməsidir. Bu əsas məqsəd isə aşağıdakı mühüm vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

– qarının arxetipik obraz kimi tədqiqi;

– problemin mahiyyətini tam şəkildə çatdırmaqdan ötrü, Ulu Anadan qarı obrazına transformasiya məsələsini araşdırılması;

– qarı obrazının mifoloji köklərini aydınlaşdırmaq üçün mif və əfsanələrdə bu obrazın funksiyasının müəyyənləşdirilməsi;

– mifoloji mətnlərdəki hal anasından qarı obrazına çevrilmə prosesini aydınlaşdırılması;

– ilkin mifoloji inanclar sistemində özünəməxsus yeri olan şamanizmdə qarının yerini, şaman funksiyasını müəyyənləşdirmək;

– epik folklorun ayrı-ayrı janrlarında qarı obrazının araşdırılması;

– obrazı ölülər dünyasına bağlayan xüsusiyyətlərin üzə çıxarılması;

– obrazın statusunun, funksiya və atributlarının müəyyən edilməsi;

---

[6] Новиков, Н.В. Образы восточнославянской волшебной сказки. – Ленинград: Наука, – 1974, – 255 с.; Пропп, В.Я. Исторические корни волшебных сказок / – Ленинград: Изд-во ЛГУ, – 1986, – 364 с.; Мелетинский, Е.М. Герой волшебной сказки / Е.М.Мелетинский. – Москва, -СПб.: Академия Исследований Культуры, Традиция, – 2005. – 240 с.

– qadın başlanğıcdan ayrılan qarı obrazı ilə kişi başlanğıcının paradiqması olan müdrik qoca obrazının qarşılıqlı müqayisəsinin aparılması;
– qarı obrazını komik edən göstəricilərin müəyyənləşdirilməsi;
– folklorun digər janrlarında qarı obrazının bənzər funksiyalarının müəyyənləşdirilməsi və s.

**Tədqiqat metodları.** Dissertasiyada aparıcı tədqiqat metodu tarixi-müqayisəli metoddur. Tarixi-müqayisəli yanaşma, qarı ilə bağlı epik folklor materiallarının həm Azərbaycan folkloru çərçivəsində, həm də universal-dünya folkloru kontekstində təhlil edilməsinə şərait yaratmışdır. Bu metod qarı obrazının epik folklorda necə formalaşmasını, inkişaf etməsini və zamanla transformasiyaya uğramasını öyrənməyə imkan vermişdir.

Azərbaycan epik folklorunda qarı obrazının öyrənilməsinə həsr olunmuş dissertasiyanın nəzəri-metodoloji əsasına bu problemin həllinə dair tədqiqatlar, elmi-nəzəri fikirlər, həmçinin mülahizələr daxildir. Dissertasiya folklorşünaslığın həm elmi, həm də nəzəri müddəaları əsasında yazılmış, bu vaxta qədər əldə edilmiş mühüm elmi nailiyyətlərdən bəhrələnilmiş, mövzunun öyrənilməsi ilə bağlı Azərbaycan, Türkiyə, Rusiya və digər ölkələrin tədqiqatçılarının önəmli əsərlərinə istinad olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** "Azərbaycan epik folklorunda qarı obrazı" mövzusu bu günə qədər folklorşünaslığımızda sistemli şəkildə araşdırılmadığına görə bu problemin həlli ilə bağlı aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

1. Mifoloji kökə malik qarı obrazının mif və əfsanələrdəki xeyirxah obraz kimi hami ruh, yaradıcı, qoruyucu, həyat verən, mükafatlandıran fuksiyalarının, bədxah obraz kimi isə dağıdıcı funksiyasının olması;
2. Qarı obrazının Ulu Anadan transformasiyası;
3. Qarının şaman kimi fəaliyyətinin mövcudluğu;
4. Qarı obrazının xüsusilə epik folklor mətnlərində mühüm yer tutması;
5. Müdrik qoca obrazı ilə qarı obrazının ortaq və fərqli tərəflərinin mövcudluğu;

6. Qarı obrazının epik folklor mətnlərində nənə, ana, dayə kimi statusunun olması;

7. Qarı obrazının qonaq saxlama, çörəkçi, həkim, bilici, yol göstərmə, cadugər, yuxuyozan, ara vuran, ara düzəldən, elçi, qızqaçırma, pay vermə, ad qoyma, məsləhətçi kimi funksiyalarının olması;

8. Qarının rast gəlindiyi məkanların (mağa, meşə, quyu, yol, qarının evi (daxması), qəsr, qala, və s.) mövcudluğu və s.

**Tədqiqatın elmi yeniliyi.** Qarı obrazına Azərbaycan folklorunun hər bir növünün müxtəlif janrlarında bu və ya digər dərəcədə rast gəlinir. Qarı obrazının transformasiyaları ayrı-ayrılıqda müəyyən qədər tədqiq olunsa da, indiyədək bu obrazla bağlı hərtərəfli və geniş sistemləşdirmə işi aparılmamış, problemə kompleks şəkildə yanaşılmamışdır. Hazırki dissertasiya işinin əsas elmi yeniliyi bu boşluğu aradan qaldırmaq üçün obrazın ilk dəfə olaraq, tam sistemli şəkildə tədqiqata cəlb edilməsi, onun mifoloji mətnlərdən epik folklor janrlarına transformasiyası prosesinin izlənilməsidir. Tədqiqatda bu obraz epik növün mövcud janrları üzrə geniş şəkildə araşdırılmış, ortaq və fərqli məqamlar kompleks şəkildə tədqiqata cəlb edilmiş, onların hər birindəki xarakterik xüsusiyyətlər müqayisəli şəkildə təhlil edilmişdir.

Azərbaycan epik folklorunda qarı obrazının araşdırılması nəticəsində dissertasiyada çoxsaylı elmi yeniliklər əldə edilmişdir. Onları ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar:

– Mifoloji mətnlər əsasında qarının genezisi öyrənilmişdir.

– Dastanlar və müxtəlif süjet göstəricili nağıllar kontekstində qarının əsas funksiya və atributları müəyyənləşdirilmişdir.

– Nağıl nümunələrində qarı obrazının tədqiqi bəzi paralellikləri ortaya çıxarmışdır.

– İlk dəfə atalar sözü və məsəllər təhlil edilərək, bu yığcam janrda qarı obrazının yeri müəyyənləşdirilmişdir.

– Atalar sözü və məsəllərdəki qarı obrazını araşdırarkən dünya folklorunda vellerizm adlanan atalar sözü növünün Azərbaycan epik folklorunda da olduğu müəyyən edilmişdir.

– Qarı obrazına ilk dəfə məkan və zaman kontekstindən yanaşılmışdır.

– Qarı obrazının komik cizgilər daşıması və triksterlik mahiyyətində özünü göstərməsi ilk dəfə olaraq sistemli şəkildə araşdırmaya cəlb edilmişdir.

– Oyunların obrazlar aləmi təhlil edilərək oyunlardakı qarı obrazının mahiyyəti izah edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti ondadır ki, buradan əldə edilmiş həm nəzəri müddəalardan, həm də işin biblioqrafiyasından folklorşünaslığa dair gələcək araşdırmalarda istifadə edilə bilər. Tədqiqatın praktiki əhəmiyyəti sırf tədrislə bağlıdır. Bu araşdırma ali təhsil müəssisələrinin filologiya fakültələrində Azərbaycan folklorşünaslığının tədrisi zamanı dərs vəsaiti şəklində istifadə imkanı verir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın elmi yenilikləri və əsas elmi nəticələri müəllifin ölkə daxili və xaricində Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda çap etdirdiyi elmi məqalələrdə, elmi konfrans materiallarında, tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Folklor İnstitutunda yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu AMEA Folklor İnstitutunun Elmi Şurasının 24 noyabr 2008-ci il tarixli iclasında (protokol №8) təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının 12 may 2009-cu il tarixli iclasında (protokol № 1) təsdiq olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olan tədqiqatın ümumi həcmi 274160 (Giriş: 10256; I fəsil: 76906; II fəsil: 116718; III fəsil: 59910; Nəticə: 10370) işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi aydınlaşdırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodu müəyyən edilir, müdafiəyə çıxarılan əsas

müddəalar, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və işin ümumi həcmi qeyd edilir.

Dissertasiyanın “**Qarı obrazının mifoloji kökləri”** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. Birinci paraqraf *“Mif və əfsanələrdə qarı obrazı”* adlanır. Bu paraqrafda göstərilir ki, arxetipik obrazlar həmişə mifologiya üçün mənbə rolunda çıxış etmişdir. Çünki qeyri-məhdud sayda olan arxetiplər məhz mifoloji mətnlər, daha sonra folklor örnəkləri vasitəsilə obraza çevrilmişlər. Qeyd edək ki, mifoloji mətnlərdə Ana arxetipinin qarı ipostasına geniş rast gəlinir. Mifoloji mətnlərdəki qarı nağıl və dastanlarda qəhrəmanın qarşısına çıxan qoca, saçları ağ, təkdiş şəklində deyil. Mifoloji mətnlərin bəzilərində qarı birbaşa Ulu Ananın transformu kimi çıxış edir, bəzilərində isə sadəcə onun izlərini daşıyır. Əfsanələrdə elə qarı obrazları var ki, onlar hami ruhun funksiyasını yerinə yetirirlər. “Xəzinə qaya”[7] adlı əfsanədə qarı hami ruh Ulu Ananın təzahürüdür. Onun qarğışı ilə göy guruldayıb, şimşək çaxır, qəddar şahın bütün xəzinəsi daşa-qayaya dönür. Gözünün ağı-qarası bircə nəvəsinə görə ah-nalə edən qarı xalqın hamisinə çevrilir, şahın apardığı işğalçı döyüşlərdə növcavanların həyatını xilas edir. Bu qarı Çuvaş demonologiyasında rast gəlinən Aşapatmaya bənzəyir. Aşapatma qeybdən xəbər verən, insanları hər cür bəd dualardan qoruyan, onlara hamilik edən mifoloji varlıqdır. Aşapatman açıq gümüşü saçlı, tək gözlü, bir qızıl dişi olan qarı cildindədir. Onun məkanı dəniz, meşə və dağdır[8]. Qoruyucu, uşaqbəxşetmə xüsusiyyətlərinə görə qarı Altay yaradılış dastanında Ağ anaya, Ana Maygıla, Yakut mifologiyasındakı Aan Alahçın Hotuna, Orta Asiyada arxaik təsəvvürlərdə geniş yayılan xeyirxah ruh Umay Anaya bənzəyir. Qadının yaradıcı Ana funksiyasını övladı olmayan qadınların yuxusuna girən qarılarda görürük. Şərur rayonundan toplanmış Vənk Piri ilə bağlı əfsanədə övlad üzünə həsrət qalmış bir qadına yuxuda qara çarşablı

---

[7] Əsatirlər, əfsanə və rəvayətlər / Hazırlayan: Arif Acaloğlu, Cəlal Bəydili.. Bakı: Şərq-Qərb, –2005. – s. 162

[8]Трофимов,А.А. Ашапатман http://www.enc.cap.ru/?t=publ&hry=116&lnk=854)

qadın övlad verir. Həmin yuxudan sonra qadının uşağı olur[9]. Qeyd edək ki, qara örpəkli qadına nağıllarımızda da rast gəlinir. "Tısbağa qız" nağılında Tısbağa qızın nənəsi çalada yaşayan qara örpəkli qadındır. Qara örpəkli qarı Orta Asiyada arxaik təsəvvürlərdə geniş yayılan xeyirxah ruh Umayın təzahürüdür. Umay da həyat verir, yeni doğulan uşaqları acıqlı ruhlardan qoruyur. Sadəcə Umay ağ paltarda olur. Ağ paklıq, müqəddəsliyi bildirir. Ulu Ananın digər transformasiyası olan Ağ ananın adındakı ağ da müqəddəsliyi, paklığı bildirir. Füzuli Bayata görə, Ağ ana elə mifoloji Ananın özüdür. Səbəbini isə, Ülgenə yaratma şüurunu Ağ Ananın verməsi ilə izah edir[10]. Qarı obrazının genezisini araşdırmaq üçün təqvim mifləri də geniş material verir. Təqvim miflərində çillələr qoca, qartımış bir qarının oğlanlarıdır. Qarı təqvim miflərində xaosun bir hissəsi kimi çıxış edir. Qarı obrazının mifoloji kökünü araşdırarkən onun mifoloji mətnlərdə Hal anası kimi çıxış etdiyinin şahidi oluruq. Aparılan tədqiqatlardan, folklor söyləyicilərindən toplanmış məlumatlardan bəlli olur ki, Hal əsasən qoca qarı cildində təsəvvür edilir. Hal anasının əsas özəlliyi ayaqlarının uzun olması, sağ döşünü sol çiyninə, sol döşünü sağ çiyninə atmasıdır. Azərbaycan mifoloji mətnlərinin bir qismində Hal "meymuna oxşar", "məxmərfason tühləri olan" adam kimi təsəvvür edilir[11]. Azərbaycan mifoloji mətnlərdə rast gəlinən Hal anası bütövlükdə nə xeyirxah, nə də bədxahdır.

Dissertasiyanın I fəslinin ikinci paraqrafı *"Qarının şaman funksiyası"* adlanır. Qeyd edilir ki, şamanların funksiyaları folklor mətnlərindəki qarı obrazının üzərinə transformasiya olunmuşdur[12]. Qarılar şaman kimi yağış yağdırma, külək əsdirmə mərasimlərində

[9] Əsatirlər, əfsanə və rəvayətlər / Hazırlayan: Arif Acaloğlu, Cəlal Bəydili. Bakı: Şərq-Gərb, 200., s.180.

[10] Bayat, F. Türk Mitolojik Sistemi. Ontolojik ve Epistemolojik Bağlamda Türk Mitolojisi / F.Bayat. Cilt: 1, – İstanbul: Ötüken, –2007, –s.49

[11] Azərbaycan folkloru antologiyası. XII kitab (Zəngəzur folkloru) / Toplayanlar və tərtib edənlər V.Nəbioğlu, Ə.Əsgərov, M.Kazımoğlu. – Bakı: Səda, – 2005. – s.59

[12] Hüseynova, Ş. İbtidai inanclarda qarının şaman funksiyası // – Bakı: QƏRBİ KASPİ UNİVERSİTETİ Elmi Xəbərlər (Humanitar və Sosial-siyasi elmlər seriyası). – 2021. №2, – s. 98

yer alırlar. Mifoloji mətnlərdə, əfsanələrdə qarılar bəzən şaman kimi ortaya çıxır, bəzən isə şaman olma prosesində iştirak edirlər. Şamanlığa namizəd şaman olana qədər onların ətrafında cərəyan edən hadisələrin mərkəzində qarılar dayanır. Məhz bu qarıların köməyi ilə namizəd ya şaman olur, ya da şamanlıqdan imtina edir. Dastanlarda rast gəlinən bəzi qarı obrazları şamanlığa namizədi "şaman xəstəliyindən" qurtarmaq üçün çağırılan yaşlı qadın şamanı xatırladır. Qeyd edək ki, inisiasiya mərasiminə faktiki rəhbərlik edən qadın şamanlardır. Şamanlardan qarı obrazına keçən başqa bir funksiya ad verməkdir. Nağıllarda və dastanlarda qarılar qəhrəmana ad vermək üçün toplaşırlar. İnanclarda Ağ və Qara şamanlar olduğu kimi nağıl və dastanlardakı qarılar da yaxşı və bəd xasiyyətli olurlar. Araşdırmalara əsaslanaraq deyə bilərik ki, yaşlı qadınlar qara şaman funksiyasını daşıyırlar. Çünki qara şamanlar kimi nağıllarda, dastanlarda olan qarılar göylə yox, yeraltı dünya ilə əlaqəlidirlər. Şamanın falçılıq, uzaqgörənlik kimi mistik funksiyaları qarı obrazında da var. Şamanların malik olduqları bəzi atributları nağıl və dastanlardakı qarılarda görürük. Məsələn, şamanlar kimi qarıların da güzgü, qan, qavaldan sehrli vasitə kimi istifadə etdiyinin şahidi oluruq. "*Güzgüdən O biri dünyanı görmək və ruhların yerini müəyyənləşdirmək üçün istifadə olunur. Şamanizmdə ayna günəşi, artımı və yenidən yaradılışı rəmzləndirir*"[13]. "Sehrli güzgü" nağılında cadugər padşah oğlunu dünyanı göstərən sehrli güzgünün dalınca yollayır[14]. Şamanın atributlarından biri də qavaldır. 428 Div qarısının qulluğunda süjet göstəricili nağıllarda[15] div qarısının qavalı var. "Torçuoğlu" nağılında arvadın çörəyi qana batırıb yediyini görürük. Bu, bizə vəcd zamanı şamanın qan udma ritualını xatırladır.

Dissertasiyanın ikinci fəsli **"Epik folklor mətnlərində qarı"** adlanır. İkinci fəsil beş paraqrafdan ibarətdir. Birinci paraqraf *"Nağıllarda qarı obrazı və onun müdrik qoca obrazı ilə qarşılıqlı*

---

[13] Bayat, F. Ana hatlarıyla türk şamanlığı /F.Bayat, İstanbul, Ötüken, 2006, s.190-192

[14] Azərbaycan folkloru külliyyatı. VII cild. Nağıllar (VII kitab) / Tərt.ed. H. İsmayılov, O.Əliyev. – Bakı: Nurlan, – 2008. s.140

[15]Rüstəmzadə, İ. Azərbaycan nağıllarının süjet göstəricisi / İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, – 2013. – 368 s

*müqayisəsi”* adlanır. Bu paraqrafda, ilk növbədə, qarı obrazının inisiasiya mərasimi ilə bağlılığına nəzər salınır. “*Nağıllar ölülər dünyası ilə bağlı izləri, təsəvvürləri özündə saxlamaqla yanaşı, həm də geniş yayılmış ritualı – gənc oğlanların cinsi yetişkənliyi ilə bağlı təsəvvürləri, ölüb-dirilmə ilə bağlı inisiasiya mərasimini özündə ehtiva edir*”[16]. V.Y.Proppun fikirlərinə əsaslanıb deyə bilərik ki, ölülər dünyasına aid olan, inisiasiya mərasiminə hamilik edən qarını tam ifadə edə bilmək üçün nağıllar üzərində araşdırma aparmaq lazımdır. Bunun üçün İlkin Rüstəmzadənin tərtib etdiyi kataloqa[17] müraciət etmişik.

Azərbaycan nağıllarında qarı obrazı ilə yanaşı müdrik qoca obrazı da diqqəti cəlb edir. Müdrik qocanı qarıya əks mövqedə görsək də, süjet xəttində qarı-dərviş-müdrik qoca paralelizmi yaranır. Hikmət Quliyev bu paralelizmi belə izah edib aydınlaşdırır: “*Mətnlərdə bu iki obraz paralel fəaliyyət göstərir. Çünki “ata və ana arxetipi varlığın iki mühüm prinsipini ifadə edirlər... Ata aktiv, yaradıcı başlanğıcı, ana həssaslıq və qayğıkeşliyi ehtiva edir*”[18]. Biz də bu fikrə öz əlavəmizi edərək deyə bilərik ki, hər ikisi kişi və qadın başlanğıcını özündə ehtiva etdiyinə görə ya birlikdə, ya da ayrı-ayrılıqda doğum aktında iştirak edirlər. Bu cəhət nağıllarda öz əksini tapmışdır. Şahzadə Mütalib”, “Simanın nağılı” “Cantiq”, “Yoxsul qarı ilə şahzadə” nağılları bu paralelizmi izah etmək üçün səciyyəvi nümunələrdir. “Şahzadə Mütalib” nağılında dərviş-nurani qoca-qarı obrazları paralel çıxış edirlər. Övladı olmayan padşahın dərdinə əlacı dərviş edib, göydən düşən almanın sirrini nurani qoca açırsa, doğum zamanı padşahın cavan arvadının ağrı-acısına göydən enən qarı əlac edir. Hər dəfə bu qarı gələndə qiyamət qopur, qarı qara buludun içindən çıxır[19]. O biri dünyaya yollanan qəhrəman qarının maneəsi ilə rastlaşırsa, müdrik qocanın məsləhəti ilə bu maneəni aşır. Bəzi

---

[16]Пропп, В.Я. Исторические корни волшебных сказок /. – Ленинград: Изд-во ЛГУ, – 1986, с.73

[17]Rüstəmzadə, İ. Azərbaycan nağıllarının süjet göstəricisi / İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, – 2013. – 368 s

[18]Quliyev, H. Müdrik Qoca arxetipinin semantik strukturu və paradiqmaları / H.Quliyev. – Bakı: Elm və təhsil, – 2016. –s.112

[19] Azərbaycan nağılları: 5 cilddə, II c. / Tərtib edəni Ə.Axundov. Bakı: Şərq-Qərb, – 2005. – s.121

nağıllardakı qarılar istisna olmaqla, əksər nağıllarda qoca müsbət, qarı isə mənfi qütbdə dayanır. Yəni müdrik qoca-qarı paralelizmində qoca kosmosu, qarı isə xaosu rəmzləndirir. Nurani qoca ilə qarı obrazının ortaq cəhəti çoxdur. Bunu onların yerinə yetirdikləri funksiyalardan görmək mümkündür: advermə, yol göstərmə, xəbər vermə və s. Qarının hiylələrindən qurtulmaq üçün qəhrəmana yolu nurani qoca, və ya dərviş göstərir. Nurani qoca Müdrik Qoca arxetipinin paradiqmasıdırsa, qarı Ulu Ananın transformudur.

Dissertasiyanın ikinci fəslinin ikinci paraqrafı "*Dastanlarda qarı obrazı"* adlanır. Bu paraqrafda dastanlarda müxtəlif funksiyalar daşıyan qarılar təhlilə cəlb edilmişdir. Araşdırma göstərir ki, nağıllardan fərqli olaraq, dastanlarda qarı obrazının funksiya və atributları geniş deyildir. Dastanlarda qarılar daha çox dayədirlər. Lakin məqam düşəndə buta verilmiş aşiqə kömək etməsi, dərdinə əlac tapması, sevgiliyə qovuşmaq üçün ona yollar göstərməsi, bəzən isə ara vurub aşiqi məşuqundan ayırması da qarı obrazının dastanlardakı səciyyəvi cəhətləri sırasındadır. Qarılar dastanlarda, əsasən, çoxbilmiş, hiyləgər, uzaqgörən kimi təsvir olunur. Kitabi-Dədə Qorqud dastanında dörd cür qarıdan söhbət açılır[20]. Qarıların təsviri "Koroğlu" dastanında da var[21].

M.Cəfərli "Azərbaycan dastanlarının struktur poetikası" əsərində qarıdan aparıcı obraz kimi danışır: "*Məhəbbət dastanlarının obraz sistemində mənfi funksiyalı "qarı" obrazı süjet xətti boyunca hadisələrin kulminativ inkişafında, psixoloji gərginliyin güclənməsi prosesində fəal iştirak edir*"[22]. Məhəbbət dastanlarında qarı obrazına daha çox rast gəlinir. Bu dastanlarda qarılar mediatordur. "Əsli və Kərəm" dastanı üzərində apardığı araşdırmaya əsasən Seyfəddin Rzasoy qarının mediativ funksiyasını iki cəhətlə: birincisi, onun epik süjet daxilindəki sabit yeri, ikincisi, mediativ qabiliyyətləri ilə təsdiqləndiyini yazaraq qarının əsas funksiyası kimi yenidən qurmanı qeyd edir[23]. Həqiqətən də buta veriləndən sonra qəhrəman qarılardan asılı vəziyyətə

---

[20]Kitabi - Dədə Qorqud. Azərbaycan xalq ədəbiyyatı / tərt.ed. S. Əlizadə, – Bakı: Öndər, –2004. – s. 22

[21] Koroğlu dastanı / İ. Abbaslı, B. Abdulla. – Bakı: Lider, –2005, –s.337-339

[22] Cəfərli, M. Azərbaycan dastanlarının struktur poetikası / M.Cəfərli. – Bakı: Nurlan, –2010. – s.326

[23] Rzasoy, S.Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi ("Əsli-Kərəm" və "Dədə Qorqud") / –Bakı: Elm və təhsil, –2015. – s. 105

düşür, sanki onların həyatını növbəti evlilik aktı olana kimi qarılar idarə etməyə başlayırlar. Fikrimizcə, evlilik aktı növbəti doğuluş aktı hesab edilə bilər. Çünki evlilik aktı ilə sanki qəhrəman yenidən doğulur. Təbii ki, bu da, ayrıca tədqiqat tələb edən mövzudur.

Bir çox dastanlarda qarıların adı olur. "Alı xan" dastanı bunun bariz nümunəsidir: "*Qarılar cürbəcür olur: Pərcahan, Hürcahan, Zorcahan; Napak qarı, İpək qarı, Köpək qarı*"[24]. "Qurbani" dastanında bir yox, bir neçə qarı obrazı var. Mirzalı xanın oğlu Qurbaninin dərdini anlamaq üçün qarıları çağırırlar[25]. Axırda qəhrəmanın dərdini tapan ipək qarı olur. O, xəstənin nəbzinə baxıb, ona buta verildiyini, eşqə düşdüyünü, iki-üç gündən sonra ayılacağını söyləyir. "Butanın məqamı, məkanı, ünvanı..." əsərində buta amilinin folklorda və etnoqrafiyada əks olunmuş rəmzi-mifoloji qatlarına aydınlıq gətirən Şakir Albalıyev haqlı olaraq qeyd edir ki, "*xaotik aləmdə vergi almış gənci – aşiqin sirrini bu dünya adamları birdən-birə anlayıb dərk edə bilməzdilər*"[26]. Xəstənin halını dərk edə bilmək üçün xaotik aləmin sakininə ehtiyac var. Həmin sakin ipək qarıdır. Dastanda da göründüyü kimi nə napak qarı, nə də köpək qarı məsələdən hali deyillər. Çünki buta vermə, buta alma prosesi özündə müqəddəslik ehtiva edir. Buna görə də butanı verən şəxs müqəddəs şəxs olduğu kimi xəstənin dərdini çözən qarı da ağbirçək, ipək qarı olmalıdır. Dastanlardakı qarıların əsas funksiyalarından biri dayəlikdir. Dayə qarıların bariz nümunəsi Banıçiçəyin dayələri Boğazca Fatma və Qısırca Yengə obrazlarıdır. "Tahir və Zöhrə", "Abdulla və Cahan xanım", "Şah İsmayıl" dastanlarında da dayə qarılar var.

Dissertasiyanın ikinci fəslinin üçüncü paraqrafı *"Atalar sözü və məsəllərdə qarı"* adlanır. Təhlilə cəlb olunmuş nümunələrə əsasən söyləmək olar ki, qarı ilə bağlı atalar sözləri və məsəllərdə həm real qarı, həm də qarının mifoloji obrazı əks olunub. Qarı obrazının təbiətindəki dualizm atalar sözlərinə də yansıyıb. *"Qarı var sözü alqışdı, qarı var dinsə qarğışdı", "Qarı var el-obada öyməli, Qarı var*

---

[24]Azərbaycan dastanları / (5 cilddə). Tərt.ed. Təhmasib, M., Axundov, Ə.– Bakı: Lider, – c. 1, – 2005. s.199

[25]Azərbaycan dastanları / (5 cilddə). Tərt.ed. Ə.Axundov. – Bakı: Lider, – c. 3, – 2005. – s. 42

[26]Albalıyev, Ş. Butanın məqamı, məkanı, ünvanı // Azərbaycan Şifahi Xalq Ədəbiyyatına Dair Tədqiqlər, XXXXII kitab, – Bakı: Elm və təhsil, – 2013. – s. 83

*başına döyməli"*[27]. Qarı ilə bağlı atalar sözləri daha çox ironikdir. Onu da qeyd edək ki, qarı ilə bağlı bəzi atalar sözü və məsəllərin qaynağı lətifələrdir. Bunun da əsas səbəbi qarı obrazında hiyləgərlik xüsusiyyətinin üstünlük təşkil etməsidir. Tədqiqat zamanı qarılarla bağlı *vellerizmlər*[28] də ortaya çıxdı. Qarı ilə bağlı bəzi atalar sözləri fərqli yanaşma tələb edir. "Ata ilə oğul" nağılında evlənmək istəyən qoca kişi oğlunun razılığını almaq üçün qarılarla bağlı atalar sözü deyir: "arvat öyün dirəyi, bərəkəti, yar-yaraşığıdı", "kişi anadan yetim qalmaz, arvaddan yetim qalar"[29]. Bu tip atalar sözləri dünya folklorşünaslığında vellerizm, anti-proverbs, антипословица (antiposlovitsa) terminləri ilə ifadə olunurlar. "*Vellerizm fərqli bir sintaktik formulu olan, satira və ya yumor məqsədləri üçün istifadə edilən atalar sözü növüdür*"[30]. Vellerizmlərdə əsas məzmun orijinalın məzmununa çox oxşayır, sadəcə bəzi sözlər gülüş məqsədi ilə dəyişdirilir. Araşdırma zamanı Hal qarısı ilə bağlı atalar sözlərinə də rast gəldik. Bu atalar sözləri inanclardan qaynaqlansa da, real həyata sirayət edərək günümüzdə işlək atalar sözlərinə çevrilmişdir.

İkinci fəslin dördüncü paraqrafı *"Epik folklorda qarı obrazının statusu, funksiya və atributları"* adlanır. Bu paraqrafda qarının statusu, funksiya və atributları geniş şəkildə araşdırılmışdır. Araşdırma göstərir ki, epik folklorda rast gəlinən qarı obrazının status, funksiya və atributları müxtəlifdir. Məsələn, qarı obrazının Azərbaycan nağıllarındakı təzahürü təzadlarla müşahidə olunur: onu bəzən bədxah qüvvə, bəzən də qəhrəmanın köməkçisi kimi görürük. Bu obrazın çörək bişirmə, qonaq saxlama, xəbərçi, həkim, bilici, küpyeridən, ara vuran, ara düzəldən, elçi, qızqaçırma, pay vermə, ad qoyma, məsləhət vermə, yol göstərmə, yuxuyozma, dayə funksiyaları da aşkarlanmışdır.

---

[27]Azərbaycan folkloru antologiyası. XXI kitab (Qazax örnəkləri) / Toplayanı M.Həkimov. – Bakı: Elm və təhsil, – 2012. – s.177

[28] Hüseynova, Ş. Atalar sözü və məsəllərdə qarı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu, – 2019/1 (54) – Bakı: "Elm və təhsil", – 2019. – s.70-74

[29]Azərbaycan folkloru antologiyası. XIII kitab (Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru) / Tərt.ed. İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva. – Bakı: Səda, – 2005. – s.291

[30] Coinnigh M.M. 5 Structural Aspects of Proverbs. https://www.academia.edu/3629309/Structural_Aspects_of_Proverbs pdf

Nağıllarda sirli kəlmələrin, çətin tapşırıqların cavablarının qarılarda olması, qarıların qəhrəmana gizli biliklər, məlumatlar ötürməsi də bu obrazın müəyyənləşdirilmiş başqa bir funksiyasıdır.

Əgər nağıl, yaxud dastanda mənfi xarakterli qarıdan söhbət gedirsə, o zaman qarı köpək qarı, napak qarı, küpəgirən qarı ləqəbləri ilə qarşımıza çıxır. Müsbət xüsusiyyətli qarıları isə ipək ləqəbiylə görürük. Azərbaycan epik folklor örnəklərinə nəzər yetirəndə qarıların təsvirində onların həm xarici görünüşü, həm də daxili keyfiyyətlərinin nəzərə alındığını müşahidə edirik. Epik folklor janrlarından ən çox nağıllarda qarı obrazına rast gəlindiyi üçün sadaladığımız xüsusiyyətləri daha çox nağıllar əsasında araşdırmaq lazım gəlir. Qarı obrazı funksiyasına görə nağıllarda iki cür olur: fəal qarılar, qeyri-fəal qarılar. Azərbaycan epik folklorunda daha çox fəal qarılar üstünlük təşkil edir. Adından da göründüyü kimi, qeyri-fəal, passiv qarılar xüsusi tapşırıq vermir, məsləhətçi, vasitəçi, araçı olmurlar. Nağıllarda rast gəldiyimiz qarı çox vaxt əri olmayan qadındır. Bu qarıların bir övladı olur, o, ya ağıllı qız, ya da fərasətli keçəldir. Çox zaman qarı qızı və ya oğlanı sonradan övladlığa götürür. Qarının əsas funksiyalarından biri "qonaq saxlamaq"dır. Və bu funksiya ilə əlaqəli qarının "çörəkçi" funksiyası da var. Araşdırma zamanı belə qənaət formalaşır ki, mənfi tipli qarı qonaqpərvərlik edib qəhrəmanı evində saxlayırsa, onu yedirib-içirirsə, bu onu heç də müsbət qarıya çevirmir. Qarıların digər funksiyası ara vurub, ara düzəltmək, xəbərçilik etməkdir.

Tədqiqata cəlb etdiyimiz Azərbaycan nağıllarında qarıların əsas atributları küp, süpürgə, cəhrə, təndir, sandıq, daraq, sehrli çubuq, qızıl ləyən, qızıl aftafadır. Atributlar qarıların funksiyalarını həyata keçirmək üçün vasitədir. Sadaladığımız atributlar ölülər dünyasını rəmzləndirən əşyalardır. Azərbaycan epik folklor nümunələrindəki qarıların sahib olduqları atributların digər xalqların folklor nümunlərindəki qarılarda da olduğu müəyyənləşmişdir.

İkinci fəslin beşinci paraqrafı *"Folklorda qarının rast gəlindiyi məkanlar"* adlanır. Burada göstərilir ki, istər mifologiyada, istərsə də folklorda qarının rast gəlindiyi məkanlar fərqlidir. Qarı mifoloji obraz kimi ölülər dünyasına bağlıdır. Məkan amili qarının ölülər dünyasına bağlılığını sübut edir. Əsasən şəhərdənkənar məkanlar qarı obrazı üçün daha xarakterikdir. Qarının evi, qarının evinə gedən yol, meşə, mağara,

quyu, ümumiyyətlə, qarı ilə bağlı olan hadisələrin baş verdiyi məkanlar obrazı lokallaşdırır. Nağıllarda qarı qaranlıq mağarada, quyuda, meşədə, kimsəsiz şəhərdə – xaos dünyasında qəhrəmanın qarşısına çıxır. Əngəllərlə dolu yolda bəzən ən böyük əngəl qarı olur. Onun komasında qəhrəman yenidən canlanır, dirilir, inisiasiyadan keçir. Şəhər kənarında olan bu məkanlarda qarının daxması yerləşir və bu daxmada qarı qəhrəmanı qonaq edir. Nağıl boyu görəcəyimiz sirli hadisələrin təməli bu daxmada qoyulur. Keçilməz qəsrlərə, qalalara qəhrəmanlardan başqa qarılar gedib çıxa bilir.

Dissertasiyanın üçüncü fəsli **"Qarı obrazı komik qəhrəman kimi"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf *"Nağıl və dastanlarda komik qarı"* adlanır. Nağıllarda sırf komik qarıya, eyni zamanda hərəkətlərində komiklik olan mifoloji qarıya rast gəlirik. "*Mətndə komizm gücləndikcə mifologizmin meydanı daralır və mif öz yerini mifin məzəli yamsılanmasına verir*"[31]. Miflərdən başlayaraq əfsanələrdə, dastan və nağıllarda tez-tez qarşımıza çıxan qarı obrazı bəzi xüsusiyyətlərinə görə trikster hesab edilə bilər. Trikster nədir? Bu sualın cavabını tədqiqatçlar müxtəlif cür cavablandırmışlar. Ramazan Qafarlının trikster üçün verdiyi tərif isə daha dəqiqdir: "Trikster – *mifologiyada mədəni qəhrəmanın əks qarşılığına – demonaoxşar, komik, kələkbaz, şeytanəməlli dublyoruna verilən addır*"[32]. Trikster adət-ənənəni dağıtmaq üçün meydana girir, o, dünyanın nizamını pozur, xaosa səbəb olur. Qarı obrazını trikster edən xüsusiyyətlər yetərincədir.

Komik qarı obrazı kələkbazlıq motivi ilə qırılmaz surətdə bağlıdır. "*Kələkbazlıq və axmaqlıq müsbət və mənfini, yaxşı və pisi öz qoynuna alaraq birləşdirir*"[33]. Trikster obrazı üçün səciyyəvi əlamətlərdən biri də axmaqlıqdır. "Dəlisov arvad" nağılında axmaq qarı gülüş hədəfidir. Çaydan küp tapan arvad ərinin "Ramazan gələndə qızılları xərclərik"

---

[31] Kazımoğlu, M. Xalq gülüşünün poetikası / M.Kazımoğlu. – Bakı: Elm, – 2006. – s.158

[32]Qafarlı, R. Mifologiya [6 cilddə]. Mifogenez: rekonstruksiya, struktur, poetika / R.Qafarlı. – Bakı: Elm və təhsil, – c. 1, – 2015. – s.231

[33]Kazımoğlu, M. Gülüşün arxaik kökləri / M.Kazımoğlu. – Bakı: Elm, – 2005. –, s. 37

sözünə görə bütün qır-qızılı Ramazan adlı zoğalsatana verir[34]. Qarını trikster edən digər xüsusiyyət acgöz olmasıdır. Məsələn, "Cinlər padşahının qızı" nağılında qarı padşahın oğluna məsləhət vermək, yol göstərmək üçün pul istəyir[35].

Dastanlarda da komik qarılar xüsusi yer tutur. Kitabi-Dədə Qorqud dastanında Banıçiçəyin dayələri komik qarılardır. "Dədə Qorqud"da Boğazca Fatma və Qısırca Yengə obrazları komik vəziyyətlərə düşür, gülüş hədəfinə çevrilirlər. Lakin komiklik burada formadırsa, məzmuna nəzər salanda burada ciddi tərəf, xaos görürük. Qısırca, Boğazca ayamaları Yengənin, Fatmanın komik xarakterini açmağa xidmət edir. Bu ayamaların təsdiqini onların gülməli davranışlarında tapdığını bildirən Muxtar Kazımoğlu həmin hərəkətlərə, onların dərələrdə neçə-neçə oyundan çıxmasına bir zarafat göstəricisi kimi baxmaq fikrini irəli sürür[36].

Dastanlarda napak qarılar yalançı və hiyləgər olduqlarına görə döyülüb-söyülür, tənqid hədəfinə çevrilirlər. "Heydər" dastanında Süsənbərin dayəsi, "Seydi və Pəri" dastanında Bayramxatun bu cür qarılardandır.

Üçüncü fəslin birinci paraqrafının *"Trikster qarı ilə trikster keçəl qarşıdurması"* adlanan birinci bəndində qarı və keçəl obrazlarının müqayisəsi əsas yer tutur. Bu bənddə vurğulanır ki, qarı-keçəl qarşılaşmasına daha çox nağıllarda rast gəlinir. Qarı kimi keçəl obrazının da genezisi demonik varlıqlara gedib çıxır. Lakin bu demonizmə xeyirxah fövqəltəbiilik də əlavə olunub. Qarı-keçəl süjet xəttində ya qarı keçələ kömək edir, ya da keçəl qarı nənəsinə. Adətən fəal tərəf keçəl olur[37]. Qarının avamlığı ilə keçəlin hiyləgərliyi nağıllarda tandem təşkil edir. Qarı keçəlin hiyləsinə qurban gedir.

---

[34]Azərbaycan folkloru külliyyatı. VII cild. Nağıllar (VII kitab) / Tərt.ed. H. İsmayılov, O. Əliyev. – Bakı: Nurlan, – 2008. –s. 323-327

[35]Azərbaycan folkloru külliyyatı. I cild. Nağıllar, (I kitab) / Tərt.ed. H. İsmayılov, O. Əliyev. – Bakı: Səda, – 2006. – s .40

[36]Kazımoğlu, M. Folklorda obrazın ikiləşməsi / M.Kazımoğlu. – Bakı: Elm, – 2011. – s.102

[37]Esedova, Ş. Türk Mitolojisinde Trickster Karı (Azerbaycan Folklor Örnekleri Esasında) // Manas Sosyal Araştırmalar Dergisi, Kırgızistan: Kırgızistan- Türkiye Manas Üniversitesi, – c. 9, – 2020. №3, –s. 1938

Ümumiyyətlə, keçəl yalnız qarıya yox, hökmdara, vəzirə yaxud yollandığı O biri dünyada qarşılaşdığı demonik varlıqlara kələkbazlıqla qalib gəlir. Keçəl ilə bağlı nağıllarda qarı-keçəl qarşıdurması komizmi gücləndirir. Qarı-keçəl qarşıdurmasında maraqlı məqamlardan biri libas dəyişənin axmaq qarı yox, onun nəvəsi keçəl olmasıdır. Qız, həkim libaslarına girən keçəl sonda həqiqətən padşahın vəziri olur. Bu iki triksterdən biri kələkbazlıq etməsəydi, libas dəyişməsəydi o zaman onlar mifoloji kökdən uzaq düşmüş olardılar. Çünki trikster bu dünya ilə O biri dünya arasında körpüdür. Eyni zamanda türk mifologiyasında qarı ilə keçəlin bir bütövdən qopması təsdiq olunub. Hər iki obrazın mənşəyi Ana Yer stixiyası ilə əlaqəlidir. Ə.Əsgər keçəl atributu daşıyan obrazlardan danışarkən keçəllik atributu olan qadın obrazlarına da toxunub və maraqlı fikirlər irəli sürüb: "*Nağıl və dastan qəhrəmanının köməkçisi kimi keçəl surəti şamançılıqda, şamanın hami ruhları ilə eyni funksiyanı yerinə yetirir*"[38]. Qarı o biri dünyanı rəmzləndirirsə, keçəl qızıl saçlı qəhrəman kimi, "*qeyri-adi əlaməti ilə o dünyaya bağlanan və öz gücünü məhz həmin sehrli aləmdən alan bir qəhrəman*"[39]dır.

Dissertasiyanın üçüncü fəslinin ikinci paraqrafı **"***Lətifələrdə qarı*" adlanır. Bu paraqrafda əsas qəhrəmanı qarı olan lətifələr silsilə şəkildə tədqiqata cəlb edilmiş və qarıların tutduqları mövqeyə, daşıdıqları funksiyaya, tənqid olunduqları və yaxud tənqid etdikləri mövzuya görə həmin lətifələr fərqləndirilərək qruplaşdırılmışdır. Lətifələrdə qarılar daha çox tənqid hədəfidir. Qarı obrazına əsasən məişətlə bağlı lətifələrdə rast gəlinir. Gəlini tərəfindən sevilməyən əzazil qayınana – "İz eşşək izisə, əməl gəlin əməlidi"[40] lətifəsində, dişləri tökülmüş, qulağı eşitməyən, ancaq hələ də özünə uzun ömür arzu eləyən qoca qarı – "Qarının arzusu"[41], qoca vaxtında ərə getmək həvəsində olan nəvə-

---

[38] Əsgərov, Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman / Namizədlik dissertasiyası / – Bakı, – 1992. – s. 79

[39] Kazımoğlu, M. Xalq gülüşünün poetikası / M.Kazımoğlu. – Bakı: Elm, – 2006. – s.81

[40]İsmayılov, H. Vətən Qürbətdə Qaldı / H.İsmayılov. – Bakı: Yazıçı, – 1993. – s. 452

[41] Qarabağ: folklor da bir tarixdir. IV kitab (Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri) / Toplayanlar İ. Rüstəmzadə, S. Bağdadova. – Bakı: Elm və təhsil, – 2013. – s. 326

nəticə sahibi arvad – "Həqq söz yaman-yovuz istəməz", "Sən çox bilirsən, ya Allahın peyğəmbəri?!"[42], hazırcavablığı ilə cavanları mat qoyan baməzə qarı – "Ağzo içində"[43] kimi lətifələrdə təsvir olunub. Lətifələrdəki qarı obrazları mifoloji qarı obrazının ironik nümunələri kimi diqqəti cəlb edir.

Dissertasiyanın üçüncü fəslinin sonuncu paraqrafı *"Folklorun digər janrlarında qarı obrazının bənzər funksiyaları"* adlanır. Qeyd edək ki, qarının sadalanan bu kimi funksiyalarına folklorun digər janrlarında da rast gəlinir. Mövzudan uzaqlaşmadan sadəcə oyunlar üzərində qısa bir araşdırma aparılmışdır və göstərilmişdir ki, oyunlarda qarılar iki funksiyanı yerinə yetirirlər. Belə ki, bəzi oyunlarda hiyləgər, kələkbaz qarı, bəzi oyunlarda isə, müdrik qadın, ana funksiyasını daşıyan qarılara rast gəlirik. Bir sıra oyunlarda "qarı", "ana" oyunçuları müəyyənləşdirir, oyunu idarə edir, uduzana cəza verir, bəzilərində isə oyunçular qarını cəzalandırırlar.

Oyunlarda "ana" obrazı digər folklor nümunələrində də rast gəlinən "ana xaqanlığı" dünyagörüşünün bir işarəsidir. Azad Nəbiyev yazır ki, "*xalq oyunlarında gördüyümüz bu "ana" bəlkə də yüzilliklər arxasından süzülüb gələn, ana xaqanlığının toxunulmazlığını mühafizə etmək arzusunun yaşadılması ilə bağlı olmuşdur və ya bu oyunlar öz tarixi etibarı ilə bizi çox erkən çağlara aparıb çıxarır*"[44].

Oyuna başlamazdan əvvəl "qarı"nı müəyyənləşdirmək lazım gəlir. Bəzən oyunun əvvəlində təkərləmə, sanamalar deyilir, sonuncu heca kimdə qalırsa qarı o seçilir. Oyunun qarısı bəzən də əllər üst-üstə qoyulmaq yolu ilə seçilir. Oyunun "ana"sı isə adətən yaşca digərlərindən böyük olan, bilik göstəricisi ilə digərlərindən öndə olan, həm də fiziki cəhətdən güclü uşaqlardan seçilir. Adətən, uşaq oyunlarından fərqli olaraq, böyük oyunlarında "ana" iştirakçıların razılığı ilə seçilir. Bəzi oyunlar var ki, hiyləgərlik tələb edir və qarı

---

[42] Güney Azərbaycan Folkloru. I kitab (Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri) / Toplayanı M.Q.Fərzanə, tərt.ed. S. Abbaslı. – Bakı: Elm və təhsil, – 2013. – s.198

[43] Azərbaycan folkloru antologiyası. IV kitab (Şəki folkloru) / Tərt.ed. H.Əbdülhəlimov, R.Qafarlı, O.Əliyev, V.Aslan, c.1, – Bakı: Səda, – 2000.– s.263

[44] Nəbiyev, A. El nəğmələri, xalq oyunları / A.Nəbiyev. – Bakı: Azərnəşr, – 1988. –s.153

hiyləgər obraz olduğu üçün bu oyunlarda qarı personajından istifadə edilir. Lakin məsləhət verən, idarəçi lazım olanda "qarı" xarakteri "ana" xarakterinə çevrilir[45]. Əslində dərinə varanda, oyunlardakı "ana" bolluq, bərəkət hamisi Ulu Ananın təcəssümüdür. Qarı isə, Ulu Ananın əksyönlü təcəssümü sayılır.

Dissertasiyanın "**Nəticə**" hissəsində əldə olunmuş nəticə ümumiləşdirilmişdir:

1. Azərbaycan folklorunda ən çox rast gəlinən obrazlardan biri olan qarı, epik növün müxtəlif janrlarında olduqca mürəkkəb, ziddiyyətli rollarda çıxış edir.

2. Tədqiqatdan məlum olmuşdur ki, Azərbaycan epik folklorunda qarı demonik xarakter daşısa da, həm xeyir, həm də şər qüvvələri özündə ehtiva etməsi onu mürəkkəb fenomenə çevirir. Belə ki, eyni vaxtda müsbət qəhrəmanın müsbət köməkçi və mənfi qəhrəmanın da mənfi köməkçisi kimi çıxış edə bilir. Bu ziddiyyətli xüsusiyyətlərdən qarının aşağıdakı vacib funksiyaları formalaşmışdır:

Müsbət qarı qəhrəmanı o biri dünyaya hazırlayır→qəhrəmana sehrli əşya verir-vəziyyəti asanlaşdırır.

Mənfi qarı qəhrəmanı gedər-gəlməzə göndərir→qəhrəmanı o biri dünyada qarşılayır→vəziyyəti çətinləşdirir. Deməli, müsbət qarı qəhrəmana dostdur, mənfi qarı düşməndir.

3. Müxtəlif süjet göstəricili nağıllar kontekstində qarının əsas funksiya və atributları müəyyənləşdirilmişdir. Belə qənaət hasil olmuşdur ki, bütün bu funksiya və atributlar ölülər dünyasını səciyyələndirir. Qarının fərqli olan xarici görünüşünün təhlili göstərmişdir ki, təkdiş, kor, təkgöz, çəpgöz, köpək, alt dodağı yer süpürən, üst dodağı göy, saçları qırçınlı və yaxud mamlımatan qarı demonoloji xüsusiyyət daşıyır, geneziscə xtonik obrazdır.

4. Qarının əsas funksiyaları inisiasiya mərasimi ilə əlaqəlidir. Çünki mifoloji qarı inisasiya mərasiminin hamisidir.

5. Nağıl mətnlərinin tədqiqi bəzi paralellikləri də ortaya çıxarmış oldu. Belə ki, istər qarı, istər müdrik qoca, istərsə də dərvişin müxtəlif

[45] **Paraqrafda əldə olunmuş elmi nəticələr haqqında bax:** Hüseynova, Ş. Azərbaycan xalq oyunlarında qarı obrazının "Ana" obrazına transformasiyası // Sivilizasiya jur., – Bakı: –2015. №5, – s.113

proseslərdə paralel şəkildə iştirak etdiyi müəyyənləşmişdir. Bu paralellikdə müdrik qoca kosmosun, qarı da xaosun rəmzidir.

6. Araşdırma zamanı mifoloji obraz olaraq qarının rast gəlindiyi məkanların da ölülər dünyası ilə bağlı olması qənaəti meydana çıxmışdır.

7. Dastanlardakı qarı obrazının araşdırılmasından belə nəticəyə gəlinmişdir ki, köməkçi obraz olmasına baxmayaraq bir çox halda qarılar hadisələrin idarəçisinə çevrilirlər. Dastanlarda əsasən dayə funksiyasını yerinə yetirən qarılar buta alma prosesində xəstə aşiqin yanında olur, butasına çatmaqda kömək edir, məsləhət verir, bəzən isə elə həmin dayə qarılar bədxahlıq edib sevgililərin yolunda əngəl olurlar.

8. Qarı ilə bağlı atalar sözləri və məsəllərdə həm real qarı, həm də qarının mifoloji obrazı əks olunması qənaəti formalaşmışdır. Qarı ilə bağlı atalar sözləri daha çox ironikdir. Hətta qarı haqqında olan bəzi atalar sözü və məsəllərin qaynağı lətifələrdir.

9. Qarı obrazı komik qəhrəman kontekstində təhlil edilmiş və qarının folklorda trikster obrazlar silsiləsinə aid olduğu müəyyənləşmişdir. Belə ki, nağıl və dastanlardakı qarıların əsas əlamətləri kələkbazlıqdır. Folklor mətnlərində trikster obrazların sahib olduqları komik, oğru, kələkbaz, hiyləgər və s. xüsusiyyətlər qarıda da var.

10. Nağıllarda qarı-keçəl birliyinin də ayrıca mövzu olduğu qənaətinə gəlinmişdir. Qarı-keçəl süjet xəttində ya qarı keçələ kömək edir, ya da keçəl qarı nənəsinə. Adətən fəal tərəf keçəl olur. Qarının avamlığı ilə keçəlin hiyləgərliyi nağıllarda tandem təşkil edir.

11. Lətifələrdə qarı obrazına rast gəlindiyi üçün bu janr da tədqiqata cəlb edilmiş və qarının lətifələrdəki funksiyası izah edilmişdir. Gəlinən qənaətə görə, lətifələrdəki qarılar daha çox hazırcavablığı ilə gülüş doğurur. Lətifələrdə qayınana funksiyasını yerinə yetirən qarılar hərəkətləri ilə özlərini ifşa edərək gülüş, tənqid hədəfinə çevrilirlər. Lətifə nümunələrində özü gülüş yaradıb qarşısındakını islaha cəlb edən qarı obrazları da var. Onlar baməzə, müdrik cavabları ilə əxlaqında qüsuru olanları islah etməyə çalışan, hərəkətlərində, danışıqlarında komiklik olan qarılardır.

12. Folklorun digər janrlarında qarı obrazının analiz edilməsi qarının funksiyalarının janrlararası xarakter daşıdığını, həm də müxtəlif kontekstlərdə fərqli məna qazandığını müəyyənləşdirmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Dastanlarda "Qarı" obrazı // – İstanbul: Motif Akademi Halkbilimi dergisi. – 2015. №15, Cilt: 8 , – s.119-127.
https://dergipark.org.tr/tr/pub/mahder/issue/28385/301776

2. Azərbaycan xalq oyunlarında qarı obrazının "Ana" obrazına transformasiyası // – Bakı: Sivilizasiya. – 2015. №5, – s. 111-116.

3. İran Türklərindən toplanmış nağıllarda (nağıl və dastanlarda) qarı obrazı // – Bakı: Filologiya məsələləri. –2015. №9, – s.444-448.

4. Hal anasından qarı obrazına // – Bakı: Filologiya məsələləri. - 2017. №3, - s.440-446.

5. Atalar sözü və məsəllərdə qarı // – Bakı: Azərbaycan Şifahi Xalq Ədəbiyyatına dair Tədqiqlər. – 2019. №1, – s. 70-74.

6. Türk Mitolojisinde Trickster Karı (Azerbaycan Folklor Örnekleri Esasında) // – Kırgızistan: Manas. – 2020. №9, – s. 1934-1941

7. Qarı obrazı ilə müdrik qoca obrazının qarşılıqlı müqayisəsi // – Bakı: Dil və Ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal. – 2021. №1, (115), – s. 317-318.

8. İbtidai inanclarda qarının şaman funksiyası // – Bakı: Qərbi Kaspi Universiteti Elmi Xəbərlər (Humanitar və Sosial-siyasi elmlər seriyası). – 2021. №2, – s.92-99.

9. Qarabağ folklor nümunələrində qarı obrazı // Qarabağ folkloru: Problemlər, perspektivlər mövzusunda Respublika elmi konfransının materialları. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu. – 26 dekabr 2012, – s.201-208

10. "Dədə Qorqud" da Qısırca Yengə və Boğazca Fatma surətləri dastanlarımızdakı qarı obrazları kontekstində // Epos və Etnos Beynəlxalq elmi konfransın materialları. – Bakı: 06-07 noyabr 2015 (2016). – s.333-336

11. Halk Oyunlarinda "Karı" (Kadın) Karakteri // I.Uluslararası Türk Dünyası Çocuk Oyun ve Oyuncakları Kurultayı Tam metin bildiri kitabı. – Eskişehir: Türkiye 14-17 mayıs 2015. – s.429-434.

12. Ulu Anadan Kari Karakterine Dönüşüm (Mitolojik Metinler Esasinda) // III.Uluslararası Halk Kültürü Sempozyumu. Bildiriler Cilt-2, - Ankara:-8-10 ekim 2015. – s.619-624.

13. Yozgat ve Eski Türklerde Mitolojik Karakter –Alkarısı // I. Uluslararası Bozok Sempozyumu. (I. International Bozok Symposium). Bildiri Kitabı III.CİLT. – Yozgat: 05 -07 Mayıs 2016. – s.419-426.

14. Halk Edebiyatında Mizah Yaratan Karakter "Karı" // Uluslararası Genç Akademisyenler Kültür Kongresi. Bildiriler kitabı, - İzmir: 6-8 Ekim 2016(2017). – s. 427-434.

15. Azerbaycan'da Yaşayan Ahıska Türklerinin Al İnancı // Erzincan üniversitesi Uluslararası Ahıska Türkleri Sempozyumu. Bildiriler Cilt-2, – Erzincan: 11-13 mayıs 2017. – s.493-497.

16. Al Kızı Veya Alkarısı - Gaziantep Ve Azerbaycan Halk İnançlarında // Uluslararası Gaziantep Tarihi Sempozyumu Milli Mücadele Döneminde Gaziantep. Tarihten Günümüze Ayıntap-Gaziantep bildiri metnleri kitabı, – Gaziantep: 25-26 Aralık 2017(2018). – s. s.1411-1421.

17. Türk Halk Edebiyatında Yaşlı Karı Karakterinin Tarihsel Gelişimi- Mitlerden Masallara //18.Türk Tarih Kongresi Kongreye Sunulan Bildiriler Türk Dili ve Edebiyatı Tarihi (XII. Cilt). Türk Dili ve Edebiyatı Tarihi – Ankara: 1-5 Ekim 2018. – s.409-418.

Dissertasiyanın müdafiəsi 26 dekabr 2024 il tarixində saat $14^{00}$ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 - Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Folklor İnstitunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 noyabr 2024 il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.11.2024
Kağızın formatı: 60x84/$^{1/16}$
Həcmi: 41337
Tiraj: 100 nüsxə